BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№4 Humanitar elmlər seriyası 2015*

UOT 801.731

# MİRZƏ NƏSRULLAH DİDƏNİN "KİTABÜN-NƏSAYEH" ƏSƏRİNDƏ İNSAN XARAKTERİNİN SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ

**N.A.NURİYEV**
***AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu***
***mersell@rambler.ru***

*XIX əsrin Azərbaycan ədəbi mühitinin istedadlı ədiblərindən biri də Mirzə Nəsrullah bəy Didə olmuşdur. Azərbaycan ziyalısı ömrü boyu gənclərimizin maairflənməsi yolunda çalışmış, həm əxlaqi-didaktik əsərləri ilə, həm də doğma Şamaxı şəhərində müəllimlik etməklə bu məqsədə xidmət etmişdir.*

*Onun müəllifi olduğu "Kitabün-Nəsayeh" əsəri də bu xidmətin bariz nümunəsidir. Məqalədə bu əsərdə yer almış mənfi və müsbət insani keyfiyyətlər, bu keyfiyyətlərin səciyyəvi xüsusiyyətləri ilə bağlı zəngin hekayə və nəsihət toplusu araşdırılmışdır.*

**Açar sözlər:** Didə, nəsihət, xarakter, didaktika, maariflənmə

Mirzə Nəsrullah Qurbanbəyov Didə 1797-ci ildə Şamaxıda ziyalı ailəsində anadan olmuşdur. Şirvan xanlığında katib vəzifəsində çalışmış atası Qurban bəyin vəfatından sonra Nəsrullah bəy Şirvan xanı Mustafa xanın himayəsi və təşəbbüsü ilə təhsil almaq üçün Təbrizə getmiş, burada ərəb və fars dillərini mükəmməl şəkildə mənimsəmişdir. Şamaxıya qayıtdıqdan sonra rus dilini də öyrənən Mirzə Nəsrullah bəy Şamaxı quberniya idarəsində katib vəzifəsində işə qəbul olunmuş və burada uzun müddət fəaliyyət göstərmişdir. Mirzə Nəsrullah bəy ömrünün sonlarında Şamaxıda məktəb açaraq, müəllimlik peşəsi ilə də məşğul olmuşdur (3, 11). O, dövrünün bir sıra ziyalıları ilə sıx təmasda olmuş, Şamaxıda dövrün digər görkəmli ədibi Seyid Əzim Şirvani tərəfindən Məhəmməd Səfanın evində yaradılmış "Beytus-səfa" şairlər məclisinin də üzvü olmuşdur (4, 202). Ədib 1875-ci ildə Şamaxıda vəfat etmişdir.

Mirzə Nəsrullah Didənin yaradıcılığında şeir, mənzum hekayə və qəsidələrlə yanaşı, nəsr əsəri də mövcuddur. Onun seçmə şeirlər toplusu Salman Mümtazın "Azərbaycan ədəbiyyatı" kitabları arasında yer alır (2). Onun ictimai məzmunlu maarifləndirici əsərləri günümüzədək gəlib çatmış ədəbi irs nümunələri arasında yer alır (Seyid Əzim Şirvani M.N.Didənin qəsidə və qəzəl-

lərdən ibarət divanı olduğunu da qeyd edir (5, 73)). Bu əsərlərdən biri də qeyd edilən nəsr nümunəsi "Kitabün-Nəsayeh" (Nəsihətlər kitabı) əsəridir. Bu əsər XIX yüzilliyin Azərbaycan ədəbiyyatının səciyyəvi xüsusiyyətlərindən olan yetişən gənc nəslin sağlam əxlaqi ruhda böyüməsi və inkişafı üçün qələmə alınmış yaradıcılıq nümunələri arasında özünəməxsus yer tutur. Nəsr əsəri ənənəvi dibaçədən, 2 fəsil və "Xatimə" adlanan hissələrdən ibarətdir.

Qafiyəli nəsrlə yazılmış kiçik dibaçədə Allah-Təalanın fəzilətlərindən bəhs olunur: **"Cəvahiri-zəvahiri-həmdü səna bir münimi-həqiqi dərgahinə nəsr olsun ki, Zati-əqdəsi Qadiru Alimu Yektadır"** (1, 13).

Daha sonra Uca Yaradanın tərifinə həsr olunmuş məsnəvi quruluşlu 22 beytlik bir şeir parçası verilir:

***Xudavəndi-xəllaqi-səd aləmin,***
***Nə kim, biz bilən bircə ərşü zəmin.***
***Bizüm elmimizcə səna eylərük,***
***Bətərifi-naqis dua eylərük.***

Müəllif ardınca dövrün rus imperatoru II Aleksandrı dərin ehtiramla tərif edir və ona da 22 beytlik qəsidə - mədhiyyə (Mədhi-əlahəzrəti-şahənşah) həsr edir:

***Nə şahənşahi-fələk, şövkəti-əlaiqbal,***
***İmperatori-qəza, hikməti-xurşidcəlal.***

Daha sonra ədib kitabın yazı dili ("türki ibaratı ilə təlif və təsnif") və tərtibi, fəsil və "Xatimə"(sonluq) hissələri barədə məlumat verir: "Və İşbu kitabi iki fəsil və bir xatimədə xətm etdüm ki..." (1, 18).

Qeyd edildiyi kimi kitabın əsas məzmunun yer aldığı fəsillərdə insan üçün xarakterik olan təbii xüsusiyyətlərdən bəhs olunur. Mirzə Nəsrullah bəy bu fəsillərdə qeyd olunan hər bir xüsusiyyətə dair kiçik həcmli hekayə də əlavə etmişdir və hər bab məzmununa uyğun qitə ilə bitir.

İlk fəsil insanda olan müsbət keyfiyyətlərə həsr edilmişdir və bu keyfiyyətləri özündə ehtiva edən 12 babdan ibarətdir. Mirzə Nəsrullah Didənin mühüm hesab etdiyi həmin keyfiyyətlərə aşağıdakılar daxildir:

1. **Ağıl və həya.** Ədib ağıl və həyanın tərifini bu cür verir: "Filhəqiqə, bu iki cövhəri-bimisl cəmiyi-sifatin əhsəni və sərdəftəridir və bunlar insan üçün iki şəmi-şəbistani-mərifətdürlər." M.N. Didə ağıl və həyanı bütün xasiyyətlərin ən üstünü və öndə gələni hesab edir və bu xüsusiyyətlərə yunan alimi Aristotelin dili ilə "Ağıl yaxşı işlərə rəğbətləndirər və həya pis işlərdən çəkindirər", deyə bir tərif verir (1, 19).

2. **Səxavət.** Mirzə Nəsrullah bəy bu keyfiyyəti də üstün xarakter hesab edir. Səxavətli olmağı budaqları dünyaya sallanan behişt bağlarından bir ağaca bənzədir və "kim bu budaqdan tutarsa, onu Cənnətə yetirər" fikri ilə tərif edir. Daha sonra hikmət sahiblərindən sıra ilə səxavətin üstünlüyü ilə bağlı kəlamlar qeyd edir: "**Bir həkim deyübdir: Səxi (səxavətli) ətasından ehtiyat etməz, zira bəxşiş özündən isə, mayeyi-əta Xudadandır. Bulut nə qədər yağış töksə, əli kiseyi-dəryadan**" (1, 25).

3. **Şücaət.** Ədib mübarək bir şəxsiyyətin (**büzürgvari-müqəddəs**) dilindən qeyd edir ki, kişilərin ən üstün keyfiyyəti şücaət, qadınların ən üstün keyfiyyəti isə ismətdir. Mirzə Nəsrullah bəy burada şücaətin ehtiyat, dözüm və hünərlə sərhədləndiyini qeyd edir. Ehtiyatsızlıq və yersiz təhlükələrlə müşayiət olunan şücaəti isə dəlilik (**cünun**) hesab edir (1, 32). Bu tərif şücaət babının qitəsində də öz əksini tapmışdır:

***Degil şücaət ancaq dəlir cəng edübən,***
***Miyani-mərəkədə şiri-xunfəşan olasan.***
***Rüsumi-ərseyi-kuhənün bir təriqi-hilə gərək***
***Fünuni-xüdədə fili-pəhləvan olasan.*** (1, 35)

4. **Sidq** (doğru danışmaq və düzgünlük). Mirzə Nəsrullah Didə doğruluğu hər bir söhbətin, danışığın ən əsas xüsusiyyəti hesab edir və müdrik şəxslərin dili ilə söhbəti qoşuna, həqiqəti onun elm və xilasına; çıraq və onun yağına; ədalət məhkəməsinə (**həqiqət divanı**) və onun qurtuluş fərmanına; qaranlıq gecəyə və onun ayına bənzədir. Bildirir ki, doğru danışan kəsin hər kəlməsi bir zər dənəsi və gövhər qədərdir (1, 35).

5. **Təvazö** (təvazökarlıq). Beşinci babda M.N. Didə insanlıq zatının kəraməti adlandırdığı təvazökarlıqdan söhbət açır. Yazıçı bu keyfiyyəti insanı ucaldan bir xüsusiyyət hesab edir və nə qədər çox təvazökar olarsa, bir o qədər zirvə sahibi olduğunu bildirir (1, 40).

6. **Səbr**. Mirzə Nəsrullah bəy bu keyfiyyəti şadlığın açarı və **“səvabi-axirət”** və **“xeyri-dünya”** meydana gətirən bir xüsusiyyət hesab edir. Bu babın qitəsində o, Yusif Peyğəmbərin səbrini nümunə çəkir (1, 42).

***Gərçi Yusif həbsə düşdi, çox cəfa çəkdi, vəli***
***Axirində şah olmaq ziybi-tacı səbrdir.***
***Çox qəza içrə bu mətləb olubdur təcrübə,***
***Hər bəlayi-biəlacın xoş əlacı səbrdir.*** (1, 45)

7. **Şükr.** Yeddinci bab şükr etmək xüsusiyyətinə aid edilmişdir. **“Hər kəs şükr eyləsə, dövlət və neməti ziyadə olur və səvabi-axirət həm onunçün müqərrərdir”**, deyə Didə şükr etməyin böyük nemətlərə qapı açdığını da vurğulayır (1, 45).

8. **Ədəb.** Yazıçı bu xüsusiyyətə sahib olan insanın hər kəs tərəfindən sevildiyini və hər cəmiyyətdə rəğbətlə qarşılandığını qeyd edir. Bu xüsusiyyəti insanın bitməyən xəzinəsi kimi təqdim edir (1, 47).

9. **Kitmani-əsrar.** Sirr saxlamaq xüsusiyyətini də müsbət keyfiyyətlər siyahısında qeyd edən Mirzə Nəsrullah bəy ağıl sahiblərinin ürəklərinin sirr zindanı olduğunu bildirir və Nuşirəvanın dilindən sirr haqqında bu cür tərif verir: **“Hər kim sirri saxlar, sirr də onı saxlar. Hər kim sirri bəyanə verür, sirr də onu fənayə verür”** (1, 50).

10. **İfai-əhd** (əhdə sadiq qalmaq). Ədib bu keyfiyyətə hikmət sahiblərinin dili ilə belə bir tərif verir ki, vədəsinə xilaf çıxan, əhdə vəfa etməyən şəxslər ən böyük yalançılardır və yalançılar hər xalqın üz qarasıdır. Bu baba yazdığı qitəsində müəllif əhdə sadiq qalmağı insani keyfiyyətlərin ən gözəli hesab edir:

*Əhdü iqrarə vəfa etmək sifati-hüsndür,*
*Yox vəfatək aləm içrə əhsəni-hüsni-sifat.*
*Əhdü misaqə vəfa etməkligə məna budur,*
*Niknami-əhli-aləm, baqiyati-salihat.* (1, 55)

11. **Əmanət.** Əmanət və onu qorumaq əməlisaleh və xoşbəxt insanların xüsusiyyəti kimi I fəslin on birinci babında yer alır. Müəllif qeyd edir ki, əmanətə sadiq qalan, xəyanət etməyən şəxsi Uca Allah varlı və bol ruzili edər. Əmanəti qoruyan şəxsi, əmanət də qoruyar (1, 58).

12. **Rəhm (mərhəmət).** Müsbət keyfiyyətlərə aid edilən fəslin sonuncu babında M.N. Didə mərhəmətli davranmağı da gözəl əxlaqi keyfiyyət hesab edir. Böyük alimlərin dili ilə müəllif qeyd edir ki, ehtiyacı olan yaxınlara mərhəmət etməklə yeddi fayda əldə edilir: Allah rizası (razılığı), yaxınların şadlığı, xalqın alqışı, nemətdə bərəkət, səmimiyyətin artması, qohum və yaxınların həmin şəxsə rəhmət oxuması, savab sahibi olmaq (1, 63).

Mirzə Nəsrullah Didə əsərin ikinci fəslində insana xass olan mənfi xüsusiyyətlərdən bəhs edir və onları da on iki babda sıralayır.

1. **Kizb** (yalan danışmaq). Mirzə Nəsrullah bəy yalan danışmağın insanı zəlil və etibarsız etdiyini, hörmətdən saldığını bildirir (1, 69).

2. **Buxl** (xəsislik). **“Xəsisin həyatı onun malı, ölümü həmin malın xərcidir”**, ədib xəsis təbiətli insanları bu cür tərif edir. Yazıçı müxtəlif təşbehlərlə mal sahiblərini sahib olduqları nemətlərdən ehtiyacı olanlara verməyə çağırır (1, 72).

3. **Təmə** (tamah). Müəllif bu babda tamahın mənfi keyfiyyətindən və zərərlərindən bəhs edir. Loğmanın oğluna vəsiyyətində, tamah haqqında belə bir qeyd verir: **“...ey oğul, xəlqün dövlətməndi o kəsdir, öz miknətinə qənaət eylüyə və fəqirtərini o kəsdir, xəlq yanına təmə içün gedə”** (1, 79).

4. **Kibr** (təkəbbür). Yazıçı bu sifətə ən bariz nümunə kimi insan oğlunun əbədi düşməni Şeytanı misal gətirir. Bu məxluqun təkəbbüründən dolayı Allahın əmrindən çıxması və Adəmə səcdə etməməsi səbəbilə Uca Dərgahdan qovulmuşdur (1, 84).

5. **Xəyanət.** **“Bir danişmənd deyübdür: “Hər kəsün qəlbində xəyanət ola, guya bir əfi surax içrə məkan dutub, sacmağa vəqt axtarur”,** deyə ədib xain insanı zəhərli ilana bənzədir. Hətta bütün digər mənfi keyfiyyətlərin bu xüsusiyyətdən qaynaqlandığını bildirir (1, 89).

6. **Hərzəguluq** (boş danışmaq). İnsanı hörmətsiz edən bir xüsusiyyət kimi altıncı babda verilmişdir. Bilmədən, mənasız danışmağın heç kəsə xeyir gətirmədiyini alimlərin dili ilə ifadə edən M.N. Didə boş danışmaqdansa, susmağın daha faydalı olduğunu bildirir (1, 94).

7. **Həsəd.** Müəllif burada həsədlə qibtənin incə fərqini ifadə edir və bildirir ki, əgər kiməsə Allah tərəfindən verilən nemətin məhv olmağını istədikdə həsəd əlamətidir. Ancaq həmin nemətin səndə də olmasını istəyirsənsə, bu qibtədir və mənfi hal deyil (1, 100).

8. **Təcili-ümur** (işlərdə tələsmək). Tələsik qərar vermək, düşünmədən

hərəkətə keçmək mənfi bir hal olaraq, səkkizinci babda yer alır və ədib gəncləri məsləhət etmədən, düşünmədən tələsik hərəkət etməkdən çəkindirməyə çalışır (1, 104).

9. **Nəmmamlıq** (söz gəzdirmək, xəbərçilik). Bu xüsusiyyəti fitnə və nifaqın təməli hesab edən yazıçı insanların məhz xəbərçilik və şayiə üzərində bir-birinə düşmən olduqlarını bildirir (1, 109).

10. **Süxriyyə və istehza** (kinayə və istehza). Kimə isə rişxəndlə yanaşmağı və kinayəli sözlərlə qəlbini sındırmağı böyük qəbahət hesab edən müəllif insanlara mənfi xüsusiyyətləri ilə deyil, müsbət keyfiyyətləri ilə yanaşmağı tövsiyə edir (1, 115).

11. **Qiybət** (qeybət). Bütün millət və cəmiyyətlərdə qeybət etməyin bəyənilməyən əməl olduğunu bildirən ədib qeybətin insanı dünya və axirətdə əzablı bir yola apardığını da vurğulayır (1, 117).

12. **Dürüstxuyi** (kobud xasiyyət). Pis və kobud rəftarlara meyl edən insanların heç kəs tərəfindən qəbul edilmədiyini Mirzə Nəsrullah bəy ikinci fəslin sonuncu babında qeyd edir və babı mövzuya uyğun qitə ilə tamamlayır.

***Bir məsəldir tünd sirkə yandurur öz qabını,***
***Tündxuyi həmçinin səfrayi hiddət yandurur.***
***Olmayun aludə övsafi-xilti-bədməzac,***
***Bədməzacun rəsmini nari-məzəmmət yandurur.*** (1, 120)

İkinci fəsildən sonra Mirzə Nəsrullah Didə öz əsərini "Xitamə" (sonluq) hissəsi ilə bitirir. Əsərin mühüm hissəsini əhatə edən bu bölümdə gənclərin saf əxlaqi keyfiyyətlərə yiyələnməsi məqsədilə yazıçı iki fərqli hissədə hekayə və nəsihətlər təqdim etmişdir. Bir hissədə alim bir şəxsin dilindən şahzadəyə verilən nəsihətləri ümumilikdə bütün gənclərə ünvanlandırır. Digər bir hissədə isə lətifə xarakterli kiçikhəcmli hekayələr yer alır (1,125). Bütövlükdə əsər, xüsusilə "Xatimə" hissəsi müəllifin necə böyük bilik və potensiala, zəngin dünyagörüşünə malik olduğunu nümayiş etdirir.

Mirzə Nəsrullah bəyin "Kitabün-Nəsayeh" əsəri hər dövr üçün əhəmiyyət kəsb edən yüksək ictimai-əxlaqi və dəyərli bir məzmuna sahib əsərdir və günümüzdə də öz aktuallığını qoruyub saxlamaqdadır.

**ƏDƏBİYYAT**


1. Mirzə Nəsrullah Didə. "Kitabün-Nəsayeh". Nəşrə hazırlayanlar: f.e.d. Möhsün Nağısoylu, Tutu Sadıxova. Bakı: Nurlan, 2008, 212 s.
2. Salman Mümtaz. Azərbaycan ədəbiyyatı. Mirzə Nəsrullah bəy Didə. Bakı, Azərnəşr, 1928.
3. Mirzə Nəsrullah bəy Didə (Qurbanbəyov). Bahariyyə. (Şeirlər toplusu). Bakı: Azərbaycan Universiteti, 2004, 86 s.
4. Şamil Süleymanlı. "Azərbaycan Ədəbiyyatı Ensiklopediyası". Bakı: Nağıl evi, 2008, 414s.
5. Seyid Əzim Şirvani. Əsərləri, 3 cilddə, III c. Bakı: Elm, 1974, 400 s.

## СПЕСИФИЧЕСКИЕ ОСОБЕННОСТИ ЧЕЛОВЕЧЕСКОГО ХАРАКТЕРА В ПРОИЗВЕДЕНИИ МИРЗА НАСРУЛЛАХА ДИДЫ «КИТАБУН-НАСАЙЕХ»

**Н.А.НУРИЕВ**

**РЕЗЮМЕ**

В статье «Спесифические особенности человеческого характера в произведении Мирза Насруллаха Диды «Китабун-Насайех»» рассмотрены положительные и отрицательные черты человеческой природы, в произведении Азербайджанского писателя XIX-го века М.Н.Диды «Китабун-Насайех».

В статье также приводятся некоторые мотивы из жизни писателя и педагога М.Н.Диды.

**Ключевые слова:** Диде, назидание, характер, дидактика, просветление

## SPECIFIC FEATURES OF HUMAN NATURE IN THE WORK OF "KITABUN-NASAYEH" BY MIRZA NASRULLAH DIDA

**N.A.NURIYEV**

**SUMMARY**

The article “Specific features of human nature in the work "Kitabun-Nasayeh" by Mirza Nasrullah Dida”describes the positive and negative traits of the human nature in the work "Kitabun-Nasayeh"by the XIX century Azerbaijani writer M.N.Dida.

The article also provides some of the motives from the writer and educator M.N.Dida’s life.

**Key words:** Dida, edification, character, didactics, enlightenment